# YUMORİSTİK SƏHNƏLƏR

* * *

İdarədə ikisi oturub söhbət edir. Üçüncüsü arxada oturub telefonla danışır:

- Hökmən pulunuzu çatdıracağam. Budur biz artıq Himalay dağlarını aşıb, Elbrus dağlarına yaxınlaşırıq. Arxayın olun, pulunuzu çatdıracağam.

Bu söhbətdən xəbərsiz olan iki rəfiqə söhbətini davam etdirir: - Nə oldu, qardaşının Dağıstandan göndərdiyi pul gəlib çatmadı?

- Axırıncı dəfə dedi ki, göndərdiyim adam qatarla gələ bilməyib, yolda qəza olub. İndi piyada gəlir. Onun dediyinə görə Alp dağlarını piyada aşıb Himalay dağlarına doğru gəlir. Görək də, axırı gəlib çatacaq. Deyir göndərdiyim adam da sizinlə işləyir, çox ehtibarlı adamdır.

- Təki, elə olsun!

* * *

Stalin xəstələrin palatasına daxil olur:

- Salam xəstələr.

- Salam, salam, yoldaş Stalin! - deyə hamısı ucadan dillənir.

Həkim təəccüblə:

- Yoldaş Stalin, bunların hamısı lal idi, neçə illər idi dillərini aça bilmirdik!...

- Hünərləri var dilə gəlməsinlər, it kimi gəbərdərəm. Mən bu millətin dilini yaxşı bilirəm.

- Yoldaş Stalin, bəlkə qonşu palatalara da gedək. Orada da lal xəstələrimiz çoxdur! Sizin zəhminizdən bəlkə onların da dili açıldı.

* * *

Həkimin otağına xəstə daxil olur:

- Nədən şikayətin var?

- Həkim, mənim yaddaşım pozulub.

- Deməli skleroz! Bu gün ayın neçəsidir?

- On beşi.

- Düzdür, on beşi, səndən əvvəlkindən soruşmuşdum. Deməli 15, bəs hansı aydır?

- Fevral!

- Düzdür, səndən əvvəlki də belə demişdi. Bu saat resept yazım. 15 fevral. Bəs hansı ildir?

- 2009-cu il.

- Düzdür, səndən əvvəlki də deyəsən belə demişdi. Yazdım. Bağışlayın, siz, nədən şikayət edirsiniz?

- Mənim yaddaşım pozulub!

- Səndən əvvəlki də belə demişdi. Deməli skleroz. Adınız nədir?

- Aybəniz.

- Səndən əvvəlki də belə demişdi. Sən kişi, yoxsa qadın xeylağısan?

- Qadın!

- Deyəsən səndən əvvəlki kişi idi. Yadımda deyil. Al bu dərmanı içərsən, sağalacaqsan.

- Bu dərman yaddaş üçündür?

- Ver baxım, yox, bu dərman deyəsən, quduzluq üçündür. Bağışlayın siz nə vaxtdan quduzluq xəstəliyinə tutulmuşsunuz?

- Bağışlayın, mən artıq sağaldım. ...Sağ olun...

- Sizdən əvvəlki də belə deyirdi. Ancaq o deyəsən quduz xəstəliyinə yox, qotur tutulmuşdu.

* * *

Birisi oxuyur ancaq aparıcının xoşuna gəlmir:

- Bu nədir əəə... Bəs dedin məşhur oxuyansan, səsin hamını valeh edir?!

- Qardaşım, belə demə, sən bir hamam gətir, mən girim içində oxuyum. Onda görərsən necə məlahətli səsim var.

- Məlumdur, görünür müğənniliyindən bir şey çıxmadı, onda şairliyindən danış. Odur meyxanaçılar indicə verilişimizə bir şeir dedilər. Sən də verilişimizə bir şeir qoş.

- Qardaşım, mən elə edə bilmərəm. Sən bir zindan gətir. Mən girim içinə, başlayım şeir yazmağa. Adi halda mən şeir yaza bilmirəm.

* * *

Dekanlıqda professorla adi işçilər arasında mübahisə gedir. Professor onları günahlandırır ki, niyə ayda iki dəfə onu növbətçi salmışlar. Laborant və tyutorlar da təhqiramiz tonla ona sübut etməyə çalışırlar ki, belə lazımdır. Bu vaxt biri içəri daxil olur və professorun ayaqları altına düşüb öpür:

- Siz böyük yaradanın əziz bəndəsi, Haqqın səsi, Allahın iradəsini yer üzündə insanların düşüncəsinə çatdıran bir şəxsiniz. Mənim aləmimdə sizdən böyük, sizdən dahi insan yoxdur! Sizin qədəm basdığınız torpaq da müqəddəsdir, o torpağı öpüb alnımıza qoymalıyıq!

Dekanlıqda olan bütün adamlar təəccüblə bu səhnəni izləyir...

- Eh, mənim qədrimi siz bilirsiniz. Biri ayaqlarım dəyən torpağı öpür, başqası məni alçaldır... Düz deyiblər "eşşək bilməz zəfəran nədir"...

* * *

Nəsiminin vaxtı:

- Oğlum mənin dərimi soymağa aparırlar. Əgər istəyirsənsə bu günə düşməyəsən, onda nə edirsən, et, təki dini işlərə qarışma.

Stalin vaxtı:

- Oğlum, məni güllələməyə aparırlar. Bax vəsiyyətim budur; dünyada nəyə istəyirsən inan! İstəyirsən şeytana sitayiş et, istəyirsən ateist olub Allahı söy, istəyirsən namaz qıl, istəyirsən bütpərəst, nə bilim, atəşpərəst, xaçpərəst ol! Təki dövlətə toxunma, yoxsa səni güllələyərlər! Yadında saxla!

Müasir zəmanə:

- Oğlum, məni həbs edirlər. Bu zəmanədə hansı dinə istəyirsən inan, istəyirsən ümumiyyətlə inanma! Bu zəmanədə istəyirsən səhərdən axşama müxalifət mətbuatında dövləti söy, ya iqtidar qəzetlərində həmişə təriflə - heç bir qorxusu yoxdur. Təki vergidən yayınma. Yoxsa mənim kimi səni zindan gözləyir!

* * *

Müstəntiq və müttəhim:

- Aclıq elan etmişəm. Mənim günahım yoxdur. Buraxın çıxım gedim. Sübutunuz yoxdur!

- Budur sübutumuz, bu yazını sən yazmışsan, al oxu!

- Saat səkkizdə banka gəl oğurlayaq. (ağzına basıb yeyir) Sübutunuz daha yoxdur. Buraxın məni!

- Biri də var. Al, dalısını oxu!

- Sabah gəl bankı yaraq! (ağzına basıb yeyir) Buraxın, sübutunuz yoxdur! Aclıq elan etmişəm.

Müstəntiq ona başqa bir kağız verir. Onu da müttəhim yeyir. Axırda müttəhim kağız yeməkdən doyub deyir:

- Daha aclıq elan etmirəm. Zəhmət olmasa bir qurtum su verin, mədəm partlayır!...

* * *

Keşişlə molla yerlərini dəyişməli olur. Keşişin yerinə hücrədə oturan molla tövbə edən birisi ilə üz-üzədir:

- Müqəddəs ata, mənim günahlarımı bağışla. Mən bankı yarıb günah etmişəm.

- Oğlum, sən apardıqlarından bir qismini nəzir versən, mən də günahından keçərəm.

- Nə qədər istəyirsən, müqəddəs ata!

- Nə qədər çırpışdırmısan-

- Beş milyon!

- Ondan iki milyonu nəzir qutusuna, qalanlarını sənə halal edirəm.

- Yaxşı, gedib gətirim.

Gedir. Hücrədən çıxıb gedən mollanı keşiş qarşılayır. Molla keşişin geyimini verib, öz çalmasını qoyur:

- Necə, keşişlik xoşuna gəldi-

- Əlbəttə gəldi. Bizim ömrümüz boyu qazandığımızı siz bir gündə qazanırsınız. Birisinə bir iki milyon oxumuşam, gətirəndə bizim də payımızı verərsən.

- O, nə deməkdir, bizim dinimizdə elə şey yoxdur. Biz rüşvət alıb tövbə qəbul etmirik.

- Nə danışırsan, indi deyirsən bağışladıqlarınızdan sizə heç nə çatmır-

- Ax, bu müsəlmanlar!..



***Sənan İBRAHİMOV***